## Unutsaq unudularıq

# Mənə əziz olan o illər...

—Hər dövrün öz istəyi, öz arzuları olub. Arxasınca köks ötürüb həsrətlə baxdığım arzularımın nə vaxtsa pərvazlanacağına nikbinliklə baxmışam. Təskinliyim bu olub ki, çətinlikləri qəbul etməyən adam heç vaxt yaxşı nə varsa ona nəsib ola bilməz. Nə qədər çətinliklərim olsa da, özümü bu gün xoşbəxtlərin xoşbəxti, varlıların varlısı sayıram. Xeyirxah, zəngin mənəviyyatlı adamlar həmişə zirvələrdə oturur, ürəklərdə yaşayır, hamının sevimlisi olur.

İfadələr Qəbələ ağsaqqalı Səməd Səmədovundur. Artıq on səkkiz ildir ki, bu insanı tanıyıram. Xidməti işimlə əlaqədar ilk dəfə Qəbələ Rayon İcra Hakimiyyətinə gələndə onun xeyirxah, mənəviyyatca zəngin söhbətləri diqqətimi çəkmişdi. Sonralar bunun tam canlı şahidi oldum. Ömür kitabının yetmiş səkkizinci səhifəsi oxunan həmsöhbətim Səməd Səmədovla bu günlərdə yenidən görüşdüm.

Arabir səliqə ilə arxaya daradığı ağ saçlarına əli ilə sığal çəkir, özünəməxsus səliqə-sahmanı, sanki cavanlığını xatırladan qaməti yerişi ilə qocalığı arxada qoyub bir anlığa gəncləşirdi. Ulu öndər Heydər Əliyevin adını daşıyan parkda xeyli gəzişdik. Özünün keçmişini ötəri xatırlatsa da, parkın gözəlliyindən, doğma Qəbələsinin firavanlığından daha çox söhbət açırdı.

--Bu yerlər belə deyildi. Gözəllikdən, aparılan sosial abadlıq işlərindən, rayonumuzun icra hakimiyyətində olan yüksək işgüzarlıqdan, qayğıkeşlikdən, insanlara olan məhəbbətdən adam ləzzət alır. Mənə xoş gələn bir də odur ki, doğma rayonumuz kimi, bu gün rayona rəhbərlik edənlər də, icra hakimiyyətinin aparatı da demək olar başdan-başa cavanlaşıb. Bir də ona sevinirəm ki, kollektivdə hələ mən rəhbər vəzifədə olarkən özümlə çiyin-çiyinə çalışanlar da bu gün məsul vəzifələrdə əyləşiblər. Onlar o vaxt topladıqları təcrübələrindən bu gün bacarıqla istifadə edirlər.



Səməd müəllim bir anlığa xəyala dalıb əlini irəli uzatdı. Qarşıda üçmərtəbəli bina vardı-- dedi --Rayon Soveti icraiyyə komitəsi, aqrar sənaye birliyi, digər bir çox məsul idarələr orada yerləşirdi. Ondan bir qədər yuxarıda isə keçmiş raykomun, indiki icra hakimiyyətinin binası vardı. İndi isə tamam başqa aləmlə, gözəlliklə qarşılaşırıq. Böyük, yaraşıqlı, çoxlu fəvvarələr, istirahət guşələri olan gözəl bir məkandayıq. Bura ən zəngin gözəlliyi, əzəməti, yüksək mənəviyyatı bəxş edən ulu öndər Heydər Əliyevin əzəmətli abidəsidir. Ulu öndər Qəbələni çox sevirdi, qəbələlilər də ona o vaxt da, bu gün də sonsuz məhəbbət bəsləyirlər. Çünki bugünkü Qəbələ məhz onun uzaqgörən iqtisadi və sosial strategiyasının bəhrəsidir. Bir-birindən yaraşıqlı park və meydanlar, dünya standartları səviyyəsində olan istirahət mərkəzləri, böyük heyvandarlıq kompleksləri, sənaye müəssisələri, rayonumuzun sosial iqtisadi həyatına müqayisəolunmaz yeniliklər bəxş etmişdir. Qəbələmiz bu gün beynəlxalq əhəmiyyətli bir çox mədəni, sosial və iqtisadi tədbirlərə ev sahibliyi edirsə, deməli, o, artıq beynəlxalq miqyasda tanınır, sevilir.

Səməd müəllim Qəbələ haqqında, onun uzaq keçmişi, dünəni, bu günü haqqında zəngin məlumatlı adamdır. Bunun bir səbəbi də onun uzun illər bu rayonda məsul rəhbər vəzifələrdə çalışmasıdır. Mühasiblikdən rayon icraiyyə və rayon xalq nəzarəti komitələrinin sədri vəzifələrinə kimi yüksəlib. Özü də kiminsə tapşırığı, xahişi ilə yox, ancaq öz çalışqanlığı, vəzifə məsuliyyəti, işgüzarlığı, bir də lazım gələndə göstərdiyi məqsədyönlü prinsipiallığı ilə. Təqaüdə çıxana kimi Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sosial-iqtisadi məsələlər üzrə müavini vəzifəsində çalışıb. Çoxlu sayda fəxri fərmanları, müxtəlif mükafatları, təltifləri var. Amma ulu öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə, rayonda daşıdığı vəzifələrlə əlaqədar dəfələrlə onunla olan görüşlərini, söhbətlərini ulu öndərdən aldığı tapşırıq və göstərişləri ömrünün ən gözəl, unudulmaz anları, əməyinin ən yüksək qiymətləri, mükafatları sayır. Səməd müəllim Qəbələ Rayon İcra Hakimiyyətində işləyərkən "Dövlət qulluğunda fərqlənməyə görə" medalına da layiq görülüb.

Dövlətə, dövlətçiliyə sədaqəti, fəal ziyalılığı, təşəbbüskar ağsaqqallığı ilə fərqləndiyi kimi nümunəvi ailə başçısı olması ilə də rayonda hamının hörmətlisi, sevimlisidir. Övladlarının hamısı ali təhsillidir. Doqquz nəvəsindən ən kiçiyi olan Səma istisna olmaqla qalanlarının hamısı ali təhsilə yiyələnib.

Sizə elə gəlməsin ki, vaxtı ilə hansısa bir dövlət vəzifəsində çalışan məmuru reklam etmək xatirinə bu yazını qələmə alırıq. Əsla. Məqsəd dövlətin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşması üçün ömrünü şam tək yandıranların gəncliyə örnək olduğunu işıqlandırmaqdır. Elinə, obasına bağlı insanın bənzərsiz ömür salnaməsi sözün həqiqi mənasında bu günümüz və sabahımız üçün işıqlı xatirələrdir. Bədii yaradıcılıqla məşğul olan Səməd müəllimin müəllifi olduğu "Bənzərsiz ömrün salnaməsi" kitabında da məhz bu xatirələr yaddaşlara həkk olunub. Yazımıza da adını çəkdiyimiz kitaba yazılan ön sözdən aşağıdakı sətirləri xatırlatmaqla son qoyuruq: - "Bəli, Səməd Səmədovu tanımaq üçün onu oxumaq lazımdır". Əlavə edib deyirik ki, oxumaqla bərabər, özü ilə üzbəüz oturub həmsöhbət olmaq, acılı-şirinli xatirələrini öz dilindən canlı-canlı eşitmək daha yaxşıdır.

**Rasim AMANOV,**
**«Respublika» qəzeti.**

## Muzey xəbərləri

### Xatirə saatı

Noyabr ayının 2-də Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində həmyerlimiz AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, arxeoloq Qara Əhmədovun (1928-2003) xatirəsi yad edilmişdir. Böyük təntənə ilə qeyd olunan Xatirə saatını muzeyin direktoru Xalis Məmmədov giriş sözü ilə açıq elan etmiş, görkəmli alimin həyat və fəaliyyəti haqqında geniş məlumat vermişdir. Azərbaycan tarixində arxeologoya sahəsində ilk dəfə doktorloq dissertatsiyasını müdafiə edən Qara Əhmədov Beyləqanın, Qəbələnin tarixi arenaya daxil olmasında böyük xidmətlər göstərmişdir. Qeyd edək ki, həmyerlimizin daimi güşəsi muzeyin ekspozisiyasında sərgilənməkdədir.

### Daimi sərgi

Tariximizi qoruyub saxlayan muzey daim ekspozisiyasını genişləndirməkdədir. Bu baxımdan bir çox numizimatik, etnoqrafik və sair materiallardan ibarət sərgilər daha çoxluq təşkil edir. Zəngin ekspozisiyaya malik muzey əhalidən də bir neçə qədim əşyaların muzeyə verilməsinin hər zaman tərəfdarı olmuşdur. Çünki muzeyə əşya kimi gələn hər nümunə muzey üçün gözəl bir sənət əsəri, daimi sərgilərin xarakterik nümunəsidir.

Muzeydə dulusçuluq məmulatlarından ibarət daimi sərgimiz fəaliyyət göstərməkdədir. Nehrələr, küplər, bərnilər, piti qabları, güldan və sair formalı nümunələr hər bir tamaşaçıda böyük maraq oyadır. Daimi sərgidə özünə yer tutan bu nümunələrlə hər kəs tanış ola bilər.

# 14 noyabr—Ümumdünya Diabet Günüdür

14 noyabr—Ümumdünya Diabet Gününün təsis olunması həkim Frederik Bantiçin adı ilə bağlıdır. O, 1921-ci ilin oktyabrında öz tələbəsi Çarlz Bestlə birlikdə ilk dəfə şəkərli diabet xəstəliyinin müalicəsi üçün insulin preparatını kəşf etmişdir. 14 noyabr bu böyük alimin doğum günüdür. Məhz onun şərəfinə Beynəlxalq Diabet Federasiyasının və Ümumdünya Səhiyyə Təşkilatının qərarına əsasən 14 noyabr 1991-ci ildən etibarən Ümumdünya Diabet Günü kimi qeyd olunur.

Bu tarixi günün beynəlxalq səviyyədə qeyd olunması diabet xəstəliyinin problem və qayğılarını üzə çıxarır. Hazırda dünyada 200 milyona yaxın şəkərli diabetli xəstə var. Hər on ildə bu say 2 dəfə artır. Azərbaycanda isə 60 min nəfərdən çox şəkərli diabetli xəstə rəsmi olaraq qeydə alınıb. Şəkərli diabet təkcə tibbi problem deyil, o həmçinin sosial, iqtisadi, psixoloji və hüquqi problemlərin də meydana çıxmasına səbəb olur.

Bu problemlərin hər birinin vaxtında həlli minlərlə insanın yararlı insan kimi həyata, cəmiyyətlə qaytarılması, neçə-neçə sınıq qəlbin sevinməsi deməkdir. Şəkərli diabetlə xəstə insanlara hamı və hər kəs həm mənəvi, həm də maddi dəstək olmalı, onların problemlərinə qayğı ilə yanaşılmalıdır.

Ölkəmizdə bu xəstəliyə qarşı mübarizə üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilir. 2005-ci il iyun ayının 7-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəkərli diabet üzrə Dövlət Proqramı"nı təsdiq etməsi də buna misaldır.

Azərbaycan diabet liqası isə diabetlə xəstə olan uşaqlar və gənclər üçün "Yantus" yay düşərgəsi yaratmışdır. Şəkərli diabet xəstəliyinin müalicəsində analoqu yüksək keyfiyyətli, həyat üçün son dərəcə vacib olan "Yantus" preparatının adı ilə adlanan bu düşərgədə insulinlə müalicə geniş tətbiq olunacaqdır. "Yantus" insulinin əvvəlki insulindən fərqi onun sutkada bir dəfə vurulması, yüksək keyfiyyətlə olması və qanda şəkərin miqdarının normada saxlanmasıdır.

Belə yay düşərgələri şəkərli diabetlə xəstə olan gənc insanların həyat fəaliyyətini yüksəltmək, cəmiyyətə inteqrasiyasına kömək etmək və gələcəkdə diabetin xroniki fəsadlarının nəticəsi kimi əmək qabiliyyətini itirməsinin, əlil insana çevrilməsinin qarşısını almaq məqsədilə təşkil olunur. Burada şəkərli diabetlə xəstə olan gənc insan öz xəstəliyi haqqında yeni məlumatlar alır, özünə nəzarət qaydalarını öyrənir, təlim dərsləri keçir. Təlim almış gənc öz biliklərini praktik olaraq tətbiq edir, valideyn himayəsindən kənar, sərbəst həyat vərdişləri qazanır.

**"Qəbələ".**